# Qəmərvan kəndində səyyar görüş-qəbul keçirilmişdir

Qəbələ Rayon icra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təsdiq edilmiş qrafik üzrə Qəmərvan kənd sakinləri ilə səyyar görüş-qəbul keçirmişdir. Kənd sakinləri ilə görüş-qəbula rayonun təhsil, səhiyyə, turizm və mədəniyyət şöbəsinin, bir sıra idarə və müəssisələrin, xidmət təşkilatlarının rəhbərləri dəvət edilmişdilər.

Cənab başçı əvvəlcə kənd sakinlərini salamlamış, sonra ölkəmizdə, o cümlədən Qəbələdə sosial-iqtisadi inkişafın sürətindən, son günlərdə rayonumuzda keçirilməkdə olan beynəlxalq və regional tədbirlərdən danışmışdır. Daha sonra kənd sakinlərinin təklif və müraciətləri, xahişləri dinlənilmişdir.





Kənd sakinləri əvvəlcə rayonda görülən abadlıq və quruculuq işlərindən, kəndin işıq, qaz, sel təhlükəsi problemlərinin aradan qaldırılması üçün aparılan hazırlıq işlərindən razı qaldıqlarını bildirmiş, göstərilən qayğıya görə ölkə başçısına və rayon rəhbərliyinə minnətdarlıqlarını ifadə etmişlər.

Lakin əlavə olaraq təkliflər və müraciətlər də olmuşdur.

Əsas təklif və müraciətlər kəndin işıq dirəklərinin dəyişdirilməsi, kəndə təbii qaz çəkilməsinin sürətləndirilməsi, ehtiyaca görə həyətyanı torpaq sahəsinin verilməsi, evlərin sel təhlükəsindən mühafizəsi üçün tədbirlər görülməsi olmuşdur.

Cənab başçı Səbuhi Abdullayev bir sıra məsələlərin həlli üçün yerindəcə əlaqədar təşkilatlara tapşırıqlar vermişdir.

Həlli gözlənilən məsələlər nəzarətə götürülmüşdür.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekun sözü söyləmişdir.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar İ. Vəlizadənindir.**

# Keçən ay Ceyhandan dünya bazarlarına 2,4 milyon tona yaxın Azərbaycan nefti çıxarılmışdır

2015-ci ilin iyul ayı ərzində Ceyhan limanından dünya bazarlarına 2 milyon 382 min 65 ton Azərbaycan nefti çıxarılmışdır. Bu həcmin 1 milyon 628 min 822 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil etmişdir.

ARDNŞ-nin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında Ceyhan limanından ixrac olunmuş neftin həcmi 16 milyon 991 min 794 ton olmuşdur. Ümumiyyətlə, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri istismara verilən gündən bu il avqustun 1-nə qədər Ceyhan limanından 279 milyon 459 min 854 ton Azərbaycan nefti yola salınmışdır.

Keçən ay ərzində BTC vasitəsilə 2 milyon 614 min 50 ton Azərbaycan nefti nəql olunmuşdur. Cari ilin yanvar-iyul aylarında kəmərə 16 milyon 859 min 504 ton neft ötürülmüşdür. Ümumiyyətlə, istifadəyə verilən gündən cari ilin avqust ayının 1-nə qədər BTC-yə 280 milyon 684 min 200 ton neft vurulmuşdur.

Bundan başqa, ötən ay BTC kəməri ilə 378 min 753 ton Qazaxıstan və Türkmənistan nefti nəql olunmuşdur.

# Qəbələdə kişilər və qadınlar arasında pnevmatik tüfəngdən və kiçik çaplı tapançadan 10, 25 və 50 metr məsafəyə atəşaçma yarışının qalibləri məlum olub



Avqustun 10-da kişilər arasında keçirilən pnevmatik tüfəngdən 10 metr məsafəyə atəşaçma yarışlarının final mərhələsi başa çatıb. Yarışda Cao Yifei (Çin) 207 xalla birinci, Kim Sang Do (Koreya) 206 xalla ikinci, Gorsa Petar (Xorvatiya) 186 xalla üçüncü yeri tutub.

Avqustun 11-də qadınlar arasında kiçik çaplı tapançadan 25, kişilər arasında 50 metr məsafəyə atəşaçma yarışlarının final mərhələsi keçirilib. Qadınlar arasında Çin və Rusiya idmançıları qalib gəlmişlər. Qaliblərdən 2-i Çin idmançısı olmaqla I və III yerləri bölüşüblər. Çao Lijia Çin komandasına üçüncü qızıl medalı qazandırıb. Zanq Jinqinq isə III yeri tutub. Rusiyalı Vitalina Batsaraşki II yerdə qərarlaşıb.

Son 2 günün qaliblərinin mükafatlandırma mərasimində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmiş və qaliblərlə xatirə şəkli çəkdirmişdir.

# Dünya Kuboku uğrunda kişilər arasında tüfəngdən 50 metr məsafəyə atəşaçma yarışlarının qalibləri məlum olub

Qəbələ Stend və Ox Atıcılığı Kompleksində keçirilən olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışları davam edir.

Kişilər arasında tüfəngdən 50 metr məsafəyə atəşaçma yarışları keçirilib. Yarışın final mərhələsində ABŞ, Rusiya, Çexiya, Böyük Britaniya və Danimarkadan 8 idmançı iştirak edib. Rusiya idmançısı Kiril Qriqoryan 209,3 xalla birinci,



ABŞ atıcısı Mathev Emmons 208,4 xalla ikinci, çexiyalı Tomas Jerabek isə 186,6 xalla üçüncü yeri tutub.

Yarışdan sonra idmançıların mükafatlandırılması mərasimi keçirilib.

Qeyd edək ki, beş gündür keçirilən atıcılıq yarışlarında indiyədək 16 idmançı gələn il Braziliyada təşkil olunacaq Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.